Socio-economic development of Azerbaijan in the context of geoeconomic relations of the world

Daghbeyi Allahverdiyev
Leading research fellow, Doctor of Philosophy in Economics,
Institute of Economics of ANAS. Azerbaijan.
E-mail: dagbeycahani@gmail.com
https://orcid.org/0000-0003-2629-2024

Abstract.The article analyzes the criteria for the development of Azerbaijan's socio-economic and macroeconomic policy in relations with countries around the world. One of the main directions of Azerbaijan's foreign economic relations is the development of foreign trade relations, integration into the world economy, increasing state support for imports and exports. Thus, the experience and current situation of the world in the field of political and economic relations of the state and socio-economic, financial and human welfare are studied.
Keywords: investment, economic policy, human welfare and potential, economic realities.

JEL O1, E60; **UDC** 338.22
To cite this article: Allahverdiyev D. (2021). Socio-economic development of Azerbaijan in the context of geoeconomic relations of the world. *Economic Growth and Social Welfare*, Issue II, pp. 126-136.
Article history: Received – 16.02.2021; Accepted – 26.06.2021.

Dünyanın geoiqtisadi əlaqələri kontekstində Azərbaycanın sosial-iqtisadi tərəqqisi

Dağbəyi Allahverdiyev
Aparıcı elmi işçi, iqtisad üzrə fəlsəfə doktoru,
AMEA İqtisadiyyat İnstitutu, Azərbaycan.
E-mail: dagbeycahani@gmail.com
https://orcid.org/0000-0003-2629-2024

Annotasiya. Məqalədə dünya ölkələri ilə münasibətlərdə Azərbaycanın sosial-iqtisadi və makroiqtisadi siyasətinin tərəqqi meyarları təhlil edilmişdir. Dövlətin xarici iqtisadi əlaqələri və sosial-iqtisadi, maliyyə, insan rifahı sahələrində dünya ölkələrinin təcrübəsi və müasir vəziyyəti tədqiq olunur. Azərbaycanın xarici iqtisadi əlaqələrində əsas istiqamətlərindən biri kimi xarici ticarət əlaqələrinin inkişafı, dünya iqtisadiyyatına inteqrasiya, idxal və ixracda dövlət dəstəyinin artırılması şərh edilir.
Açar sözlər: sosial-iqtisadi tərəqi, investisiya, iqtisadi siyasət, insan rifahı və potensialı, iqtisadi reallıqlar.

JEL O1, E60; **UDC** 338.22
Məqaləyə istinad: Allahverdiyev D. (2021). Dünyanın geoiqtisadi əlaqələri kontekstində Azərbaycanın sosial-iqtisadi tərəqqisi. *İqtisadi Artım və İctimai Rifah,* № 2, səh. 126-136.
Məqalə tarixçəsi: göndərilib – 16.02.2021; qəbul edilib – 26.06.2021

Giriş / Introduction

Müasir dünya ölkələri ilə münasibətlərdə Azərbaycanın sosial-iqtisadi və makroiqtisadi siyasətinin tərəqqi meyarları onun beynəlxalq iqtisadi əlaqələrinin miqyası ilə səciyyələnir. Lakin beynəlxalq iqtisadi əlaqələr də dünyanın geosiyasi və iqtisadi mühitinin xarakterindən asılıdır. Müasir dünya ölkələrinin iqtisadi əlaqələrində sosial-iqtisadi tərəqqi istiqamətində davamlı rifah, iqtisadiyyatın hüququ tənzimlənməsi sahəsində liberal pirinsiplərinin tətbiqi əsas meyarlar kimi səciyələnir.

Lakin müasir dünya iqtisadi əlaqələrinin real mənzərəsində ikili yanaşmalar, həmçinin beynəlxalq münaqişələr, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyəti dünyanın siyasi-iqtisadi münasibətlərində yeni münaqişələrin yaranmasına zəmin yaradır. Dünyada yaranmış neqativ proseslərə baxmayaraq, Azərbaycan hərtərəfli və davamlı iqtisadi tərəqqisi, müstəqil və əhatəli milli maraqlara söykənən sosial-iqtisadi vəziyyəti ilə regionda ən inkişaf etmiş ölkə hesab edilir. Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi tərəqqisi, xarici ticarət dövriyyəsinin həcmi və sosial-iqtisadi fəaliyyət istiqamətlərinin əhatəliyi ilə ölçülür. Bu istiqamətlər və göstəricilər aşağıda elmi cəhətdən təhlil edilmişdir. Ölkənin iqtisadi artım tempində əsas mənfət gətirən sahələr idxal-ixrac potensialının artırılmasını şərtləndirir. Belə ki, ölkənin idxal-ixrac potensialının inkişafı, məhsul və xidmətlər istehsal etmək qabiliyyəti olan prioritet sahələrin inkişafı üçün davamlı dövlət dəstəyi sosial-iqtisadi tərəqqi meyarlarına

əsaslanır. Beləliklə, idxal-ixracda maksimal mənfəətə əsaslanan real iqtisadi tərəqqi və siyasi-iqtisadi naliyyətlərə imkan yaradır.

Ölkənin insan rifahının davamlı dəstəklənməsi üçün ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi və həyata keçırılən prioritetlər müasir dünya iqtisadi mənzərəsində aktuallığı ilə səciyyələnir. Bunlar həmin Strategiyaya əsasən Azərbaycan iqtisadiyyatında insan kapitalının tərəqqisinin davamlı təminatında əmək məhsuldarlığının yüksəldilməsi ilə xarakterikdir. Bu istiqamətdə strateji hədəflər kimi insan kapitalının formalaşması və tərəqqisi üçün təhsilin bütün pillələrində irəliləyişin təmin edilməsi davamlı insan rifahının əsasıdır. Müasir dünya ölkələri ilə münasibətlərdə Azərbaycanın sosial-iqtisadi maraqlarının əsas meyarları da insan rifahının davamlı tərəqqisi və əmək məhsuldarlığının yüksəldiməsini təmin etməkdir.

Əsas hissə / *Main part*

Ədəbiyyatların təhlili

Mehdiyev (2019), Məmmədov (2011), Həsənoğlu (2014), Alıyev (2010), Əliyev (2011) və digər alimlər xarici iqtisadi əlaqələrində Azərbaycanın sosial-iqtisadi maraq-larının əsas istiqamətlərini tədqiq etmişlər. Bununla yanaşı, Azərbaycanda xarici ticarətin, ixrac-ixrac potensialının tərəqqi meyarlarının bir sıra istiqamətləri kifayət qədər öyrə-nilməmişdir.

Metodologiya

Tədqiqatın yerinə yetirilməsində müqayisə, sistemli təhlil, riyazi-statistik təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi məlumatları təşkil edir.

Nəticələr və müzakirə

Azərbaycanın sosial-iqtisadi tərəqqisinin əsas meyarları

Tərəqqi meyarları kimi davamlı insan rifahının dövlət tənzimlənməsinin forma və metodları, dövlətin iqtisadi siyasətinin istiqamətləri və əsas məqsədləri, iqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmlərinin öyrənilməsi aşağıdakı kimi səciyyələnir:

* mülkiyyətin tənzimlənməsi, makroiqtisadi vəziyyət;
* dövlətin antiinhisar siyasəti;
* Siyasi və sosial-iqtisadi sabitlik;
* büdcə-vergi siyasətinin tənzimlənməsi;
* dövlətin pul-kredit siyasəti;
* dövlətin antiinflyasiya siyasəti;
* qiymətlərin, dövlətin investisiya-innovasiya və struktur siyasəti;
* davamlı tərəqqinin təmin edilməsinin dövlət mexanizmi;
* regional sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi;
* sosial inkişafın və məşğulluğun dövlət tənzimlənməsi;
* xarici iqtisadi fəaliyyətin tənzimlənməsi.

Bununla yanaşı, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da müxtəlif sahələrin idarə edilməsində insan rifahının yüksəldilməsi zəruri məsələlərdən hesab edilir (Mehdiyev, 2008). Müasir dövrdə təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklər və yeni texnologiya ilə insan rifahı təmin edilir. Müasir dünya iqtisadiyyatında bərpa olunan enerji mənbələrindən istifadənin sürətləndirilməsi məqsədi ilə maliyyə tədbirlərinin həyata keçirilməsi, elmi-texniki potensialın gücləndirilməsi əsas hədəf olaraq planlaşdırılmalıdır. Qeyd edilən meyarlar

Azərbaycanda vətəndaş rifahının tərəqqisini və işsizlik səviyyəsinin minimum endirilməsini, yeni iş yerlərinin yaradılmasını, inkişaf etmiş insan tərəqqisini, mühafizə edilən sağlam ətraf mühitün yaradılmasını və real sosial-iqtisadi mənzərəni əks etdirməklə səciyyələnir. Bu təhlillər əsasında gələcək iqtisadi potensialı proqnozlaşdırdıqda, ölkədə hər nəfərə hesablanan ÜDM-in həcminin bir neçə dəfə artırılması imkanlarını qeyd etmək olar. Belə ki, hələ 2020-ci ildə Azərbaycanın Dünya Bankının hər nəfərə hesablanan Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli ölkələr" sırasında tamhüquqlu ölkə olduğu qeyd edilmişdir. BMT-nin İnkişaf Proqramının İnsan İnkişafı ilə bağlı təsnifatına əsasən, Azərbaycan "yüksək insan inkişafı" ölkələri qrupunda yuxarı sıralara yüksəlmişdir (Allahverdiyev, 2020).

Sosial-iqtisadi tərəqqinin mühüm meyarlarından biri də yoxsulluğun azaldılması, tarazlı sosial-iqtisadi rifahın təmin edilməsidir. Elmi təhlillərdən məlum olur ki, müasir dünya iqtisadiyyatında yaranmış sosial-iqtisadi gərginlik xarici ölkələrdə məhz gəlirlərin ədalətsiz bölgüsü ilə əlaqəli olmuşdur. Lakin əksər dünya ölkələrində iqtisadiyyatın əsas məqsədi və davamlı iqtisadi tərəqqiyə əsaslanan tələbi isə məhz gəlirlərin ədalətli bölgüsünü şərtləndirir (Məmmədov, 2011).

Ölkədə insan rifahının tərəqqi meyarları və prinsiplərinin formalaşdırılması və ona konseptual yanaşma zəruridir. Beləliklə, sosial-iqtisadi tərəqqi və insan rifahının təşkili heç də çətin məsələ deyildir və bunun üçün dövlət tərəfindən uzunmüddətli dövrü əhatə edən strateji yanaşmalar olmalı, mexanizmlər işlənib hazırlanmalı və ardıcıl şəkildə həyata keçirilməlidir. Lakin sosial-iqtisadi tərəqqi və insan rifahının təminatında mühüm əhəmiyyət malik olan meyarlardan biri də gənclərin potensialından səmərəli istifadə, bədən tərbiyəsinin, idmanın və elm-təhsilin inkişafına diqqətin daha da artırılmasından ibarətdir. Bu sahədə Respublikamızda yetərincə proqram və laihələr mövcuddur.

Qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyev iqtisadi siyasətinin əsas məqsədi də Azərbaycanda yoxsulluğun azaldılması və elm-təhsilin inkişafı, davamlı sosial-iqtisadi tərəqqinin təminatına əsaslanmışdır. Belə ki, bu sosial-iqtisadi siyasətin davamlılığını şərtləndirən "Azərbaycan Respublikasının məşğulluq strategiyası" (2005-2015-ci illər), "Azərbaycan Respublikası regionlarının 2009-2015-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması, təhsilin və davamlı sosial-iqtisadi inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər vacib proqramlar uğurla icra olunur. Bu proqramları və konsepsiyalar bir-biri ilə əlaqəli olub davamlı iqtisadi tərəqqiyə və insan rifahının təminatına tətbiqi ilə xarakterikdir. Belə ki, davamlı iqtisadi tərəqqi və insan rifahının təminatı meyarlarının, modelinin əsas istiqamətləri aşağıdakı kimi səciyyələndirilə bilər:

* Azad bazar münasibətlərini şərtləndirən iqtisadi tərəqqinin formalaşdırılması;
* Mövcud iqtisadi potensialın, texniki-istehsal və elmi-təhsil sahələrinin fəal təsərrüfat istiqamətlərində tətbiq edilməsi;
* İqtisadi tərəqqinin dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası.

Beləliklə, təsvir və tərtib edilmiş bu model Azərbaycanda mövcud iqtisadiyyatın davamlı tərəqqisinin əsasını təşkil edir. Burada prioritet sahələri əhatə edən sosial-iqtisadi siyasətin tətbiqi taktikasının əsas meyarları qeyd edilən istiqamətlərin hər birində fəaliyyətin paralel şəkildə həyata keçirilən əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır.

Qeyd edilən sosial-iqtisadi meyarların əsas hədəflərinə nail olmaq üçün müasir iqtisadi şəraitdə səmərəli dövlət tənzimlənməsi, enerjidən səmərəli istifadə və yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya və sosial-iqtisadi sahələrin inkişafına kompleks yanaşmanı səciyələndirir. Belə ki, bu model əsasında istehsal meyarları ümumi məhsuldarlığın artımı nəticəsində ölkə iqtisadiyyatının davamlı sosial-iqtisadiyyata çevrilməsi və innovasiyaların üstünlüyünün təmin olunması ilə səciyyələnir.

Beləliklə, elmin maliyyələşdirilməsinə dövlət büdcəsi resursları ilə yanaşı, digər mənbələ-

rin də cəlb olunması stimullaşdırılacaq ki, bunun da nəticəsində elmi fəaliyyətlə məşğul olan işçilərin, o cümlədən gənclərin sosial müdafiəsi güclənəcək və intelektual potensialı artacaqdır. Bununla da ölkədə iqtisadi tərəqqinin təmin edilməsi məqsədi ilə istehsal əlaqələri fəallaşdırılır ki, elm-təhsil potensialının müasir iqtisadi reallıqların tələbatı üçün tətbiqinin zəruri mexanizmləri olsun. Lakin ölkəmizin sosial-iqtisadi vəziyyəti aşağıdakı cədvəldə ətraflı şəkildə verilir:

Cədvəl 1. Azərbaycan Respublikasının 2021-ci ilin may ayınadək əsas makroiqtisadi göstəriciləri


Göstəricilər	2021-ci ilin yanvar-may ayları, faktiki	2021-ci ilin və 2020-ci ilin yanvar-may aylarına nisbətdə %	2020-ci ilin və 2019-cu ilin yanvar-may aylarına nisbətdə, %
Ümumi daxili məhsul, milyon manat	31532,5	100,8	98,3
Əhalinin hər nəfərinə hesablanan ÜDM, manatla	3150,6	100,3	97,5
Sənaye məhsulu	18833,5	97,8	100,4
Kənd təsərrüfatı məhsulu, milyon manat	2245,5	102,9	103,6
Dövlət büdcəsinin gəlirləri, milyon manat	9735,2	92,5	117,9
Dövlət büdcəsinin xərcləri, milyon manat	9366,3	99,7	99,6
Dövlət büdcəsinin profisiti, milyon manat	378,9	x	x
Əhalinin nominal gəlirləri, milyon manat	22090,5	99,2	100,8
Əhalinin banklardakı əmanətləri, 2021-ci il 01 may ayına olan vəziyyəti, milyon manat	8352,9	107,7	89,1
Orta aylıq nominal əməkhaqqı, manat	722,3*	98,1**	126,7***
Ticarət dövriyyəsi , mlyn. ABŞ $	9532,1*	129,5**	74,9***

* 2021-ci ilin yanvar-aprel ayları.
** 2021-ci ilin yanvar-aprel ayları 2020-ci ilin yanvar-aprel aylarına nisbətən,
*** 2020-ci ilin yanvar-aprel ayları 2019-cu ilin yanvar-aprel aylarına nisbətən.

Mənbə: MG (2021) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qeyd olunduğu kimi, dövlət xərclərində insan potensialı ilə əlaqədar sosial yönümlülük prioritet təşkil etmişdir. Belə ki, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin gəlirləri 24398,5mln. manat təşkil etmişdir ki, bu da 2018-ci illə müqayisədə 1889,6mln. manat və ya 8,3% çoxdur. Göründüyü kimi büdcə gəlirləri tədqiq olunan bütün dövrlər üzrə artan dinamika ilə müşahidə edilmişdir. Dövlət büdcəsinin xərcləri isə gəlirlərinin müqayisəsində yüksək olmuşdur. Belə ki, 2019-cu ildə büdcə xərcləri büdcə gəlirlərini 27,4 milyon manat, 2018-ci ildə isə 222,7 milyon manat üstələmişdir. İqtisadiyyata yönəldilən investisiyaların və kreditlərin həcmi bütün dövrlər üzrə 2016-cı ilədək artsa da, 2017-ci ildə azlmışdır. 2017-2019-cu illər üzrə isə artan dinamika ilə müşahidə edilərək 2019-ci ildə 15,3 mlrd. manat olmuşdur. Qeyd etmək lazımdır ki, iqtisadiyyata yönəldilən kapital həcminin artması iqtisadi fəaliyyət sahələri üzrə neft və qeyri-neft ÜDM-nin artmasını şərtləndirərək Azərbaycan Respublikası üzrə ÜDM-in həcminin artmasına səbəb olmuşdur. Bu isə öz növbəsində əhalinin gəlirlərinin artımına müsbət təsir göstərmişdir. Aşağıdakı qrafikdə ÜDM və əhalinin gəlirləri arasındakı asılılıq təsvir edilmişdir.

Qrafik 1. Azərbaycan Respublikasında ÜDM və əhalinin gəlirləri arasındakı əlaqələr



Mənbə: MS Excel proqram paketinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi ÜDM-lə əhalinin gəlirləri arasında y = 0,5555x + 10956 reressiya tənliyi ilə ifadə olunan yüksək əlaqə mövcudluğu vardır (R = 0,9077).

Azərbaycanda müstəqilliyin ilk illərindən başlayan iqtisadi tənəzzülün qarşısı yalnız makroiqtisadi sabitləşdirmə proqramlarının həyata keçirilməsi ilə 1997-cı ildən tənzimlənmişdir. Belə ki, ümummilli lider Heydər Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli Fərmanın icrasından sonra inflyasiya 1995-ci ildə 84 faizə, 1996-cı ildə isə 2,5 faizə çatdırılmışdır. Pul-kredit və maliyyə siyasətinin tənzimlənməsinə hesablanmış bu sərəncam respublikada mütəmadi antiinflyasiya tədbirlərinin sabitləşdirilməsi ilə səciyyələnmişdir.

Xarici ticarətin inkişafı ölkə iqtisadiyyatının səmərəliliyini artırılmasının əsası olub, beynəlxalq iqtisadi əməkdaşlıq meyarları kimi səciyələnir. Bununla yanaşı, Azərbaycanın idxal-ixrac potensialının inkişafı, idxal-ixracda məhsuldarlığın artırılması və ölkənin dünya bazarına daxil olması üçün əlverişli şərtlər iqtisadiyyatın tərəqqisini formalaşdırmaqla bərabər, yerli istehsalçıların xarici rəqabətin təsirindən müdafiəsini təmin edir. Beləliklə, iqtisadi tərəqqinin təminatı həm də bölgələrin sosial-iqtisadi fəallığının artmasına, mərkəzlə regionlar arasındakı əlaqələrin yaxşılaşdırılmasına, bölgələrdəki resurslardan səmərəli istifadəyə və ölkənin bölgələrində işsizliyin aradan qaldırılmasına və insan rifahı ilə yanaşı, digər sahələrin inkişafına imkan yaradır. Bu meyarlar gəlirlərin artması, ölkəyə valyuta axınının təmin olunması və büdcə gəlirlərinin artımı ilə səciyələnir.

H. Əliyev qeyd edirdi ki, bir çox ölkələrdə yaranmış maliyyə böhranları Azərbaycana da təsir etmişdir, lakin bunun qarşısını qətiyyətlə aldıq. Azərbaycanda artıq maliyyə sabitliyi təmin edilmişdir, manatın dəyəri sabit olaraq qalmışdır. Beləliklə Azərbaycan iqtisadi tərəqqisində ilbəil ÜDM artım tempi, idxal və ixrac dövriyyəsinin davamlı artmı ilə müşahidə edilir. Bunlar aşağıda

əhatəli şəkildə qeyd olunmuşdur.

Cədvəl 2. Azərbaycanda idxal və ixracın ümumi daxili məhsulda xüsusi çəkisi

Göstəricilər	2010		2015		2018		2020	
	mln.doll.	%-lə	mln.doll.	%-lə	mln.doll.	%-lə	mln.doll.	%-lə
Ümumi daxili məhsul	52909,3	100	52996,8	100	47112,9	100	42607,2	100
İxrac	21360,2	40,4	16592,3	31,3	20316,8	43,1	13740,6	32,3
İdxal	6600,6	12,5	9216,7	17,4	11465,9	24,3	10730,7	25,2
Xarici ticarət dövriyyəsi	33160,7	62,7	25809,0	48,7	31782,7	67,5	24471,3	57,4

Mənbə: AR (2021); AXT (2021); MHS (2021) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təsvirdən görünür ki, 2010-cu ildə ixracın ÜDM-də xüsusi çəkisi 40%-dən çox olmuş, 2018 -ci ildə isə 43,1%-ə çatmışdır. 2020-ci ildə isə bu göstərici 32,3% təşkil etmişdir. Bu da ixracın 1,6 dəfə azalması ilə izah edilir. İxracın azalmasının səbəbi isə ixrac qiymətinin cari illərdə bir neçə dəfə azalmasıdır ki, bunun da yüksəldilməsi üçün yetərli potensiallar var. İqtisadi təhlillər isə qeyd etməyə əsas verir ki, iqtisadi tərəqqi meyarlarının uğurla inkişafı üçün bu göstəricinin 30-47% əhatəsində olması məqsədəuyğundur. Belə ki, Azərbaycanda sosial-iqtisadi tərəqqi və insan rifahının inkişafı üçün münbit şərait mövcuddur. Ölkə idxalının ÜDM-də xüsusi çəkisinin 2008-cu ildə 12,5%-dən 2025-ci ildə 27%-ə qədər davamlı artımı proqnozlaşdırılır. Bunlar da idxalın həcminin 1,5 dəfə artması ilə nəticələnməlidir. Dünya təcrübəsində iqtisadi tərəqqi və insan rifahının davamlı inkişafının tənzimlənməsinə əsasən, ÜDM-də idxalın payının 27%-dən başlandığı qeyd olunur.

BVF-nin təlimatlarına əsasən, Azərbaycana yönəldilmiş birbaşa investisiyalar ölkənin maliyyə öhdəlikləri, xaricə yönəldilmiş birbaşa investisiyalar isə maliyyə fəallığı ilə səciyələnir. Lakin əvvəlki təlimatda qeyd olunan maliyyə hesabatının belə mövqeləri maliyyə vəziyyətinin ÜDM-ə müvafiq olaraq ölkənin maliyyə fəallığı və maliyyə öhdəliyi kimi şərh edilirdi. Belə ki, 2019-cu ildə respublika iqtisadiyyatına yönəldilən birbaşa xarici investisiyalar 4,3 mlrd. dollar olmuşdur. Lakin 2018-ci ildə ölkənin maliyyə fəallığı 2015-ci illə müqayisədə artımla müşahidə edilmişdir. Beləliklə, Azərbaycanı iqtisadi tərəqqi baxımından region dövlətləri sıralarında mühüm yerə və beynəlxalq iqtisadi münasibətlər müstəvisində isə sabit iqtisadi tərəqqiyə malik ölkələr mövqeyinə yüksəlmişdir.

Rəsmi məlumatlara əsasən, hazırda Azərbaycanda vətəndaşların banklara bir neçə milyard manat börcu olması barədə fikirlər mövcuddur. Belə ki, Azərbaycanda hər üç nəfərdən birinin banklara kredit borcunun yaranması və əhalinin kredit borcunun yüksək olması maliyyə və sosial-iqtisadi meyarlara neqativ təsir kimi səciyələnir. Bu göstərici əvvəliki illərdə 1,5 milyard manat, 2018-ci ildə isə 1,8 milyard manatı olmuşdur. Dünya təcrübəsində isə inkişaf etmiş ölkələrin heç birində kredit borcu inzibati məsuliyyət yaratmır. Beləliklə, qaytarılması mümkün olmayan kredit borclarla bağlı məsələnin uzadılmasının mənası yoxdur çünkü, bunlar sosial-iqtisadi sahədə dövlət tənzimlənməsini zəruri edir. Mərkəzi Bank pul kütləsinə nəzarəti həyata keçirir və manatın sabitliyinə təminat verməlidir.

Bununla yanaşı, hazırda xarici iqtisadi əlaqələr investisiyaların həm təyinatının, həm də maliyyəsinin xüsusi çəkisinin artmı ilə səciyələnir. Lakin müasir dövrdə Azərbaycan iqtisadiyyatı investisiya risklərinin yüksək olmasına, dünya ölkələrinin iqtisadiyyatında yaranmış devalvasiya şokunun təsirinə baxmayaraq, beynəlxalq investisiya mövqeyindəki büdcə gəlirlərinin və büdcə xərclərinin artdığı bir şəraitdə manatın məzənnəsi sabit qalmışdır. Beləliklə, qeyd olunan sosial-

iqtisadi vəziyyət böhrandan əvvəl ölkədə həyata keçirilmiş makroiqtisadi və monetar siyasət, yaradılmış valyuta ehtiyatları, maliyyə risklərinin qabaqlayıcı rejimdə idarə edilməsi nəticəsində tənzimlənmişdir.

Dünya təcrübəsində qeyd olunan hallarda iqtisadi tərəqqinin sabit qalması üçün arzuolunmaz ssenarilərə qarşı qoruyucu mexanizmlər yaradılır. Ənənəvi xilas təyinatlı maliyyə fondları ilə yanaşı, iqtisadiyyatın dövlət tənzimləməsində əsas meyar kimi antiböhran xarakterli xüsusi tədbirlər, həmçinin milli iqtisadiyyatın strukturunun əhatəli olması və yeni şəraitə çevik uyğunlaşmaq qabiliyyəti xüsusilə əhəmiyyətlidir.

Azərbaycanın xarici ticarət əlaqələrinin inkişaf xüsusiyyətləri

Dünya ölkələrinin iqtisadi inkişaf təcrübəsi göstərir ki, xarici iqtisadi əlaqələr bəşər tarixində, ölkələrin iqtisadi və sosial rifaha qovuşmasında mühüm rola malikdir. Ölkənin xarici iqtisadi əlaqələrinin inkişafı isə onun beynəlxalq əmək bölgüsündə iştirakı ilə əlaqəlidir və bunun əsasını xarici ticarət əlaqəsi təşkil edir.

Müstəqillik dövründən başlayaraq Azərbaycan Respublikası xarici ölkələrlə ticarət əlaqələri prosesində fəal və uğurla iştirak etmişdir. Belə ki, müstəqillikdən əvvəlki dövrdə Azərbaycan SSRİ Respublikaları ilə xarici ticarət əməliyyatlarının çoxunu həyata keçirirdi və bu ölkələrin xarici ticarət əməliyyatlarında payı 78% həcmində olmuşdur. Müstəqillikdən sonra ölkə xarici ticarətdə yeni bazarlara yönəlsə də, bir müddət əvvəl əlaqəli olduğu iqtisadi bölgədən asılılığını davam etdirdi. 1991-1995-cü illər ərzində xarici ticarətin təqribən 75-80%-i MDB (Müstəqil Dövlətlər Birliyi) ölkələri ilə həyata keçirilirdi. Bununla yanaşı, 2019-cu ilin statistik məlumatlarına görə, Azərbaycanın ixracatında ilk beş ölkə İtaliya, Türkiyə, İsrail, Hindistan, Almaniya; idxalatında isə - Rusiya, Türkiyə, Çin, İsveçrə, ABŞ olmuşdur.

Müasir dünya siyasi-iqtisadi münasibətlərində Rusiyada 2012-ci ildən başlanan V. Putinin yeni siyasi-iqtisadi strategiyası ABŞ-Rusiya münasibətlərində iqtisadi gəginliklə müşahidə edilmişdir. Belə ki, Rusiya 2000-ci illərin əvvəllərində xarici iqtisadi borclarını ləğv edərək, əsas diqqəti sosial-iqtisadi tərəqqiyə yönəltməklə keçmiş Sovet İttifaqına daxil olan coğrafiyada fəal xarici iqtisadi siyasətə daha çox diqqət yetirmişdir (Alıyev, 2010). Lakin dünyanın siyasi-iqtisadi mənzərəsində Sovet İttifaqı dövründən miras qalan hərbi rəqabətin davam etməsi, Rusiyanın NATO və Avropa Birliyinin genişlənməsini, eləcə də MDB coğrafiyasındakı rəngli inqilabları öz mənafeyinə qarşı təhdid kimi qəbul etməsi, ABŞ-ın Vladimir Putinin xarici iqtisadi siyasətini Rusiyanın imperialist siyasətinin davamı kimi səciyələndirməsi ABŞ-la Rusiya münasibətlərində siyasi-iqtisadi və ideoloji gərginlik yaratmışdır.

Lakin yeni ABŞ rəhbərliyinə gəlmiş C. Bayden Rusiya ilə siyasi-iqtisadi maraqlar naminə əməkdaşlığı inkişaf etdirməyə hazır olduğunu da bildirmişdir. C. Baydenin Rusiyaya bu münasibəti ABŞ-ın iqtisadi tərəqqini şərtləndirən maliyyə siyasətini AB ölkələri ilə birgə yönəltmək niyyəti kimi səciyələnir.

Beləliklə, gələcək illərdə dünya siyasi-iqtisadi münasibətlərinin, regional inteqrasiyaların daha sürətlə genişlənəcəyi proqnozlaşdırılır. Dünya iqtisadiyyatında sağlam ətraf mühütün yaradılması istiqamətində beynəlxalq təşkilatların rolunun artırılacağı ehtimal olunur. Bunlar innovasiyalar əsasında sənayenin elm-təhsil və texnologiya potensialının gücləndirilməsi ilə səciyyələnir.

Cədvəl 3. Azərbaycanın bəzi ölkələrlə xarici ticarət dövriyyəsi, min ABŞ dolları

Ölkələr	2015	2016	2017	2018	2019
Cəmi	**21.945.815,6**	**21.946.732,5**	**24.103.278,5**	**30.954.982,9**	**33.302.818,2**
Müstəqil Dövlətlər Birliyi və digər ölkələrlə	**2.487.471,5**	**2.822.204,2**	**3.525.038,9**	**3.999.455,1**	**4.610.980,6**
Belarus	93.674,6	124.531,1	147.700,6	203.665,5	227.260,5
Qazaxıstan	116.883,4	124.391,2	145.099,9	220.744,7	229.601,7
Özbəkistan	17.041,4	15.329,2	30.000,6	43.948,4	81.962,9
Rusiya Federasiyası	1.855.692,3	2.050.953,1	2.159.125,9	2.550.162,7	3.022.046,5
Tacikistan	6.354,7	12.320,5	2.547,8	6.547,9	3.161,9
Türkmənistan	52.433,9	152.276,0	164.135,7	133.042,7	225.652,1
Ukrayna	333.129,0	331.215,5	889.181,2	828.532,3	807.624,9
İtaliya	2,842,095.2	4,666,189.2	5,671,290.4	6,219,867.8	6,008,539.0
Almaniya	1.913.959,5	1.001.234,7	894.834,7	1.447.734,2	1.642.151,4
ABŞ	1.185.093,8	552.255,9	781.785,7	858.501,9	783.884,9
BƏƏ	72.283,4	69.371,8	39.495,3	54.333,5	66.070,5
Çin	565.111,5	1.085.832,8	1.298.342,3	1.310.222,9	2.184.194,8
Fransa	1.076.351,7	776.632,7	614.818,7	625.041,0	787.366,6
Türkiyə	2.648.647,9	2.367.247,5	2.667.559,7	3.475.849,7	4.519.496,1
Pakistan	1.956,6	7.295,5	9.251,9	12.167,5	14.792,9
Gürcüstan	564.189,4	468.108,3	561.905,5	592.324,2	659.027,1
Hindistan	305.036,6	611.809,1	501.096,7	922.480,5	1.092.520,3
Polşa	97.243,9	74.984,0	77.816,8	103.997,0	95.503,8
Xorvatiya	205.547,5	315.197,8	214.361,8	247.552,3	439.249,1
İraq	187.698,8	17.829,0	15.724,9	14.717,7	14.728,9
İran İslam Respublikası	124.712,4	221.209,9	257.068,8	446.043,2	493.832,4
İsrail	915.495,1	679.735,6	671.612,3	1.334.729,8	1.375.302,5

Mənbə: AXT (2021) əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müasir dövrdə Azərbaycanın sosial-iqtisadi tərəqqisi davamlı insan rifahına əsaslanır. Çin, Hindistan kimi ölkələrin mövcud olduğu şəraitdə dünya iqtisadiyyatında əsas iqtisadi mərkəzlər arasında tarazlığın dəyişməsi və iqtisadi münasibətlərin yenidən formalaşması baş verir. Belə əlverişli iqtisadi mənzərə Azərbaycan üçün həm xarici iqtisadi inteqrasiya, həm də sosial-iqtisadi tərəqqi istiqamətlərində yeni potensial imkanlar yaradır.

Təsadüfi deyil ki, ABŞ-ın geoiqtisadi siyasətinin istiqamətləri, xüsusilə Asiya-Sakit okean, Atlantik, Aralıq dənizi, Qafqaz, Yaxın Şərq regionları ilə bağlı strategiyası mövcuddur. Belə şərait Azərbaycanın geoiqtisadi inkişaf konsepsiyası, milli iqtisadi mənafeləri və problemlərinin xüsusi səylə işlənib hazırlanmasını şərtləndirir.

Lakin ABŞ-ın siyasi-iqtisadi nüfuz sahibləri və geoiqtisadi siyasəti, milli iqtisadi mənafelərin formalaşmasında əsas göstəricilərdən hesab edilən sosial-iqtisadi rifah templəri formalaşdırmışdır. Lakin bu sosial-iqtisadi siyasət mahiyyəti geoiqtisadiyyatla milli iqtisadi mənafelərin uyğunlaşdırılmasının mühüm meyarları kimi dünyada iqtisadi tərəqqinin sürətləndirilməsidir.

Sosial-iqtisadi tərəqqidə yaranmış ziddiyyətlər, ABŞ-ın, Fransanın və Böyük Britaniyanın Ərəb dünyasına yönəlmiş geosiyasəti siyasi-iqtisadi təlatümlər yaratmışdır (Məmmədov, 2011).

ABŞ strateqlərinin fikirlərinə əsasən, iqtisadi cəhətdən güclü ölkələrin (Almaniya, Fransa və s.) geoiqtisadi mövqeyi ona imkan verir ki, öz iqtisadi potensialı ilə Asiyada və Orta Şərqdə əlverişli siyasi-iqtisadi fəaliyyətləri həyata keçirsin. Lakin ABŞ və bu kimi ölkələrin siyasi-iqtisadi fəaliyyəti onların iqtisadi gücü yalnız dəniz kommunikasiyaları sayəsində səmərəli fəaliyyətlə səciyyəvidir. ABŞ prezidenti C. Buşun hakimiyyəti dövründə hazırlanmış "Yeni Amerika milli iqtisadi təhlükəsizlik strategiyası"na görə, ABŞ Atlantik okeanının sərvətlərindən milli iqtisadi mənafelərini həyata keçirmək naminə daha optimal və səmərəli siyasi-iqtisadi taktikaya əsaslanmışlar. Belə ki, gələcəkdə Yaxın Şərqin təbii iqtisadi potensialından ABŞ-ın mənafelərinə uyğun istifadə imkanları hələ də politoloq və iqtisadçılar tərəfində müzakirə predmetidir (Mehdiyev, 2008). Onlar hesab edirlər ki, iqtisadi tərəqqinin təmin edilməsi üçün maliyyə bazarlarına məhdudlaşdırıcı təsirlərin aradan qaldırılması, kapital və pul mərkəzlərinin sosial-iqtisadi rifaha yönəldilməsi, insan rifahının tərəqqisi üçün əlverişli mühitin yaradılması şərtləri strateji hədəfdir.

Dünya iqtisadiyyatında beynəlxalq maliyyə mərkəzlərinin təcrübəsi isə qeyd etməyə əsas verir ki, müasir iqtisadi şəraitdə dövlətin iqtisadiyyata müdaxiləsi və sosial iqtisadi tərəqqiyə konseptual yanaşma, bu istiqamətdə iqtisadi tənzimlənmə siyasəti prioritet istiqamətlərdəndir. Belə ki, iqtisadi tərəqqinin reallaşdırılması və habelə davamlı sosial rifahın təmin olunması ölkələrin mövcud vəziyyətinin əsas meyarları hesab edilir.

Nəticə / *Conclusion*

Dünya təcrübəsi göstərir ki, hər bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rola malikdir. Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi uzunmüddətli davamlı iqtisadi tərəqqini təmin etmək, "bilik iqtisadiyyatı"nı formalaşdırmaq, elmtutumlu texnologiya, məhsul yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. Bununla əlaqədar olaraq, elmin inkişafı yerli xüsusiyyətləri və qlobal meyarları nəzərə almaqla, mütərəqqi dünya təcrübəsindən yararlanmaqla, sosial-iqtisadi tərəqqinin təmin edilməsini intensivləşdirməklə səciyyələnir.

Təhlillər nəticəsində belə bir fikir yaranır ki, 2021-ci ildə başlayaraq, 2025-ci və gələcək illəri də əhatə etməklə Azərbaycan sosial-iqtisadi cəhətdən tərəqqiyə nail olacaq. Davamlı insan rifahının təmin olunmasında isə ölkəmiz yetərli potensiala malikdir.

Dövlət maliyyə sisteminin təkmilləşdirilməsi, dövlət büdcəsi vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə edilməsi, dövlət satınalmalarına nəzarətin gücləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi və sosial-iqtisadi tərəqqinin dəstəklənməsini şərtləndirir.

İqtisadi naliyyətlər, ölkə rəhbərliyinin siyasi iradəsi və ictimai-siyasi sabitliyin qorunması, dövlətin iqtisadi siyasətinin səmərəli həyata keçirilməsi, sosial-iqtisadi tərəqqiyə əsaslanan hədəflər, insan rifahının təminatına yönəldilmiş dövlət proqramları sosial-iqtisadi siyasətin davamlı olması ilə səciyyələnmişdir.

İstifadə edilmiş ədəbiyyat / *References*

AXT (2021). Azərbaycanın xarici ticarəti. https://www.stat.gov.az/source/trade/. İstinad tarixi: 18.06.2021

Allahverdiyev D. (2020). Dünya iqtisadiyyatı: İqtisadi mənafelər, mövcud reallıqlar və perspektivlər. Bakı.

Alıyev İ.H. (2010). Qloballaşma mühitində milli iqtisadi inkişaf modelinin formalaşması və inkişaf məsələləri. Bakı.

AR (2021). Azərbaycan rəqəmlərdə. Statistik məcmuə. Bakı. 2021, s.172.

Əliyev F.Ə. (2011). Azərbaycan elminin inkişaf perspektivləri. Bakı:

Əliyev İ.H. (2019). İnkişaf – məqsədimizdir, 9-cu kitab. Bakı: Azərnəşr.

Əliyev H.Ə. (1997). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr.

Həsənoğlu İ. (2014). Qloballaşma mühütində milli iqtisadi inkişaf modelinformalaşması və inkişaf məsələləri. Bakı.
Mehdiyev R.Ə. (2008). Yeni dünya nizamı: inkişafa doğru. Bakı: Azərbaycan nəşriyyatı səh. 271.
Məmmədov N.İ. (2011). Geosiyasətə giriş. Bakı: Azərbaycan nəşriyyatı.
MG (2021). 2021-ci ilin yanvar-may aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri. https://www.stat.gov.az/news/macroeconomy. php? page=1. İstinad tarixi: 12.06.2021.
MHS (2021). Milli hesablar sistemi və tədiyə balansı. https://www.stat.gov.az/ source/ system_ nat_accounts/. İstinad tarixi: 20.06.2021

Социально-экономическое развитие Азербайджана в контексте геоэкономических отношений мира

Дагбейи Аллахвердиев
Доктор философии по экономике, ведущий научный сотрудник,
Институт экономики НАНА. Азербайджан.
E-mail: dagbeycahani@gmail.com

Резюме. В статье анализируются критерии развития социально-экономической и макроэкономической политики Азербайджана во взаимоотношениях со странами мира. Одним из основных направлений внешнеэкономических отношений Азербайджана является развитие внешнеторговых связей, интеграция в мировую экономику, усиление государственной поддержки импорта и экспорта. Таким образом, были изучены опыт и нынешнее положение в мире в области политических и экономических отношений государства и социально-экономического, финансового и гуманитарного благосостояния.
Ключевые слова: инвестиции, экономическая политика, благосостояние и потенциал человека, экономические реальности.